


AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

"2007-2015-Cİ İLLƏRDƏ AZƏRBAYCAN GƏNCLƏRİNİN XARİCİ ÖLKƏLƏRDƏ TƏHSİLİ ÜZRƏ DÖVLƏT PROQRAMI"

RÜBLÜK İCMAL

**İyun–Oktyabr 2016**

## YENİ TƏYİNAT

### Dövlət Proqramı təqaüdçümüz AR maliyyə nazirinin müavini təyin edilmişdir



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 24 iyun 2016-cı il tarixli sərəncamı ilə Dövlət Proqramı çərçivəsində 2008-2009-cu illər ərzində ABŞ-ın Harvard Universitetində təhsil almış Emin Hüseynov AR maliyyə nazirinin müavini təyin olunmuşdur.

E.Hüseynov iqtisad elmləri üzrə fəlsəfi doktorudur. Uzun müddət o, Dünya Bankında, Beynəlxalq Valyuta Fondunda, AR Mərkəzi Bankında çalışmışdır. Qeyd edək ki, bundan öncə məzunumuz ADA Universitetində elmi işlər və strategiya üzrə prorektor vəzifəsində çalışmışdır.

## ELANLAR

### "Cari ildə təhsilini başa vuracaq Dövlət Proqramı təqaüdçüləri ən qısa zamanda Nazirlikdə məzun hesabatı verərək qeydiyyatdan keçməlidirlər"

Təhsil Nazirliyi ilə tələbə arasında imzalanmış müqavilə öhdəliyinə əsasən təhsilini başa vurmuş və diplomunu almış hər bir təqaüdçü müvafiq qaydada hesabat verərək Nazirlikdə qeydiyyatdan keçməlidir.

Nəzərə alınmalıdır ki, məzun qeydiyyatdan vaxtında keçməyən tələbələrin təhsili Dövlət Proqramı çərçivəsində tamamlanmamış sayılacaqdır.

Məzun qeydiyyatı ilə bağlı ətraflı məlumatı aşağıdakı keçiddən ala bilərsiniz: http://xaricdetehsil.edu.gov.az/c-mezunlar2/qeydiyyat3/. Eyni zamanda məzunlarla iş üzrə məsul əməkdaşa (gulmina.melikzade@edu.gov.az) elektron qaydada müraciət etmək mümkündür.

### Dövlət Proqramı təqaüdçülərinin nəzərinə

AR Nazirlər Kabinetinin 22 iyun 2016-cı il tarixli, 235 nömrəli qərarı ilə "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"na əsasən Azərbaycan gənclərinin xarici ölkələrin ali təhsil müəssisələrində təhsil haqlarının ödənilməsi Qaydaları"nda dəyişiklik edilmişdir. Belə ki, təhsil

alanların bəzi xərcləri (təhsil haqqı, viza və qəbul edən ölkədə qeydiyyat xərcləri, tibbi sığorta xərcləri, ildə bir dəfə qəbul edən ölkəyə gediş-gəliş xərcləri) təhsil alan tərəfindən ödənildiyi təqdirdə, həmin xərclər onun təqdim etdiyi təsdiqedici sənədlərə uyğun olaraq rəsmi məzənnə əsasında Azərbaycan manatı ilə ödəniləcəkdir.

## TƏDBİR VƏ NAİLİYYƏTLƏR

### IV Beynəlxalq piano müsabiqəsində iştirak edən təqaüdçümüz-"Gold Stück"

Rüblük icmalın bundan öncəki buraxılışında uğurlarından bəhs etdiyimiz təqaüdçümüz Murad Abasov daha bir uğura imza atmışdır. Belə ki, Dövlət Proqramı çərçivəsində



Almaniyanın "Staatliche Hochschule für Musik Trossingen" ali təhsil müəssisəsində fortepiano ixtisası üzrə təhsil alan M.Abasov 28-31 iyul tarixlərində Almaniyanın Qaylenkirhen şəhərində keçirilən "Euregio Piano Award" adlı IV Beynəlxalq müsabiqəsinin laureatı olaraq, 95 balla ən yüksək nəticə göstərmiş və 1-ci yerə layiq görülmüşdür. Qürur hissi ilə qeyd etmək istərdik ki, bu uğuru ilə Murad öz musiqi karyerasında dördüncü dəfə beynəlxalq səviyyədə birinciliyə imza atmış oldu.

M.Abasovun çıxışı münsiflər heyətini heyrətləndirmişdir və onun Şopenin "Balladası"nın səsləndirməsi Almaniya mətbuatında "Ən böyük alqışa səbəb olan ifa" başlığı ilə işıqlandırılmışdır.

Hal-hazırda M.Abasovun piano dərsləri aldığı müəllimi T.Baynov ona artıq öz yolu və dəsti-xətti olan bir ifaçı olaraq yanaşır və ona böyük ümidlər bəsləyərək bildirir ki, Şopeni Muradın interpretasiyasında olduqca çox bəyənir və tələbəsinin öz sahəsində "Gold Stück"-Qızıl parçası olduğunu bildirir.

### Birminqem Universitetində Azərbaycan cəmiyyəti sərgidə iştirak etmişdir

23 sentyabr 2016-cı il tarixində B.Britaniyanın Birminqem Universitetinə yeni qəbul olmuş tələbələr üçün tələbə ittifaqında qeydiyyatda olan cəmiyyətlərin sərgisi baş tutmuşdur. Sərgiyə dəvətlilər sırasında Dövlət Proqramı çərçivəsində Britaniyada təhsil alan Məhəmməd Ağamirzəyevin sədrlik etdiyi Azərbaycan cəmiyyəti də olmuşdur.



Belə ki, sərgi zamanı müxtəlif ölkələrdən olan tələbələrə Azərbaycanın mədəniyyəti, tarixi, incəsənəti barəsində məlumat verilmişdir. Xüsusilə ölkəmizin idman sahəsində qazanılmış uğurları və idmançılarımızın nailiyyətləri sərgi iştirakçıları tərəfindən maraqla qarşılanmışdır.

Sərginin keçirilməsi zamanı Azərbaycan cəmiyyətinə müxtəlif ölkələrdən üzv olmaq üçün maraq göstərən tələbələr olmuşdur.

### Fortepiano üzrə təhsil alan təqaüdçümüz beynəlxalq festivalda çıxış etmişdir

Gənc pianist, prezident təqaüdçüsü, beynəlxalq müsabiqələr laureatı,



Dövlət Proqramı çərçivəsində Almaniyanın Köln Ali Musiqi Məktəbində fortepiano sahəsi üzrə təhsil alan tələbəmiz Toğrul Hüseynli 27-ci "Beynəlxalq Hollandiya Musiqi Sessiyaları" festivalı çərçivəsində Niderlandın müxtəlif şəhərlərində konsert proqramları ilə çıxış etmişdir.

T.Hüseynli Niderlandın ən məhşur 3 konsert salonunda uğurla çıxış etmişdir. Tamaşaçılar Azərbaycanlı musiqiçinin ifasını heyranlıqla dinləmişlər. Konsert zamanı o, Motsartın, Şubertin, Şumanın və Prokofyevin əsərlərini ifa etmişdir.

Qürurverici məqamdır ki, musiqi sahəsində uğurlar qazanmış təqaüdçümüz olaraq Toğrulun səsi beynəlxalq festivallardan gəlir. Çıxışdan sonrakı müsahibəsində də o bildirmişdir ki, bir Azərbaycanlı musiqiçi olaraq adının dünya üzrə məhşur beynəlxalq festivallarda hallanması onun üçün olduqca sevindiricidir.

Konsertdəki çıxışından sonra T.Hüseynli növbəti il üçün keçiriləcək bu festivala yenidən dəvət almışdır.

## Dövlət Proqramı çərçivəsində rezidentura təhsili alan tələbəmiz Türkiyə Cərrahiyyə Assosiasiyasına üzv olmuşdur

Dövlət Proqramı çərçivəsində Türkiyənin Akdeniz Universitetində rezidentura təhsili alan Amil Hüseynov Türkiyədə ən ali cərrahiyyə qurumu olan Türkiyə Cərrahiyyə Assosiasiyasının konqresinə qatılmaq imkanı əldə edərək Assistent Komissiyasına üzv seçilmişdir. Komissiya çərçivəsində əsas məqsəd rezidentura təhsili müddətində assistentlərin qarşılaşdıqları problemləri müəyyənləşdirmək, yaranmış hər hansı problemin səbəbini araşdırmaq və digər assistent əməkdaşlara kömək etməkdir. İdarə Heyətinin səs verməsi ilə 7 nəfərdən



biri kimi Asistant Komissiyasına üzv seçilən təqaüdçümüz A.Hüseynovun əsas vəzifəsi Ümumi cərrahiyyə üzrə rezidentura təhsili alan assistentlərin təhsil problemlərini araşdırılması və müəyyənləşdirilməsidir.

## Universitet birincisi olmuş Dövlət Proqramı təqaüdçümüz

Dövlət Proqramı çərçivəsində İsveçrənin Qlion Universitetində 2013-2016-cı illərdə "Turizmin təşkili və idarəolunması" ixtisası üzrə təhsil almış təqaüdçümüz Ağasəf Cəbrayılov



universitet birinciliyinə layiq görülmüşdür. Belə ki, o, Qlion Universiteti tələbələri arasında ən son semestrdə göstərdiyi yüksək akademik nəticəyə görə birinciliklə təltif olunmuşdur.

## Təqaüdçümüzün elmi məqaləsi beynəlxalq konfransda dərc olunmuşdur

18-20 iyul, 2016-cı il tarixində İtaliyanın Trento şəhərində 30-cu Məlumat və Proqramların Təhlükəsizliyi və Məxfiliyi adlı Konfransı keçirilmişdir. Qeyd edək ki, sözügedən konfrans ənənəvi olaraq hər il kompüter elmləri, xüsusilə proqramlaşdırma və verilənlərlə bağlı aparılmış tədqiqatlarla bağlı həyata keçirilən beynəlxalq konfransdır.

Konfransda Dövlət Proqramı çərçivəsində Niderlanddın Neymeqen Universitetində "Kompüter elmləri" ixtisası üzrə magistratura təhsili almış Rauf Mahmudlunun "Data Governance & Transparency for Collaborative Systems" adlı elmi məqaləsi dərc olunmuşdur.

## Durham Universitetinin məzunu "ən yaxşı dissertasiya" adına görə mükafatlandırılmışdır

Akademik nailiyyətlərindən bəhs edəcəyimiz növbəti uğur Dövlət Proqramı çərçivəsində B.Britaniyanın Durham Universitetində "Mühasibat uçotu və maliyyə" ixtisası üzrə təhsil almış təqaüdçümüz İbrahim Ağayevlə bağlıdır. O, məzun olduğu Durham Universitetində *"The Potential for Islamic Financial Development in Azerbaijan"* mövzusunda apardığı tədqiqat işinin nəticəsi olaraq "Best award" adını almışdır.

## Təqaüdçümüzün əsəri 1-ci yerə layiq görülmüşdür

Dövlət Proqramı çərçivəsində B.Britaniyanın Lids Universitetində



"Bəstəkarlıq" ixtisası üzrə təhsil alan təqaüdçümüz Eldar Babayevin böyük orkestr üçün yazılmış "Pondering of Future" adlı simfonik poeması Lids Universiteti və Gənc York Orkestrinin birgə təşkil edilmiş bəstəkarlıq müsabiqəsində 1-ci yerə layiq görülmüşdür. O, Gənc York Orkestrinin Direktoru və Kompozisiyanın rəhbəri tərəfindən sertifikatla təltif olunmuşdur.

Qeyd edək ki, E.Babayev 2011-2015-ci illər ərzində Bakı Musiqi Akademiyasında Azərbaycan Respublikasının Əməkdar İncəsənət Xadimi Akif Məlikovun rəhbərliyi altında "Bəstəkarlıq" ixtisası üzrə bakalavr təhsili almışdır.

## Patositomorfologiya üzrə ilk məzunumuz



Dövlət Proqramı çərçivəsində "ilk"lər sırasına daha bir təqaüdçümüz daxil oldu. Belə ki, 2013-2016-cı illər ərzində Türkiyənin Qazi Universitetində "Patositomorfologiya (oral patologiya)" üzrə doktorantura təhsili almış F.Müseyibov bu sahə üzrə Azərbaycanda ilk dəfə fəlsəfə doktoru adını almış şəxs olaraq ilkə imza atmışdır. O doktorantura təhsilini yüksək nəticə göstərərək 4 ballıq qiymətləndirmə üzərindən 4 balla müvəffəqiyyətlə tamamlamışdır.

Təhsil aldığı müddətdə onun tədqiqat apardığı sahə üzrə bir çox məqalələri dünya üzrə məhşur jurnallarda nəşr olunmuşdur. Buna misal olaraq, F.Müseyibovun Amerikanın "Science Direct" jurnalında 4 məqaləsi, "PubMed" jurnalında isə 1 məqaləsi nəşr olunmuşdur. Eyni zamanda, onun Azərbaycanın "Sağlamlıq", "Metobolizm", "Onkologiya" və "Azərbaycan Təbabətinin Müasir Nailiyyətləri" adlı jurnallarında məqalələri çap



olunmuşdur. Həmçinin o, müxtəlif elmi konfranslarda, konqreslərdə iştirak etmişdir və onun elmi işləri həmin tədbirlərdə işıqlandırılmışdır.

## "Skripka" ixtisası üzrə təhsil alan təqaüdçümüz beynəlxalq müsabiqənin qalibi olmuşdur

Emin Hüseynov Dövlət Proqramı çərçivəsində Rusiyanın Çaykovski adına Moskva Dövlət Konservatoriyasında "Skripka" ixtisası üzrə bakalavr təhsili alır. Cari ilin 2-5



noyabr tarixində Rusiyanın Sankt-Peterburq şəhərində keçirilmiş "Gümüş kamerton" VI Beynəlxalq musiqi müsabiqəsində E.Hüseynov konsertdəki uğurlu çıxışına görə münsiflər heyəti tərəfindən mükafatlandırılmışdır.

E.Hüseynov 5 yaşından etibarən Sarabski adına 7 saylı uşaq musiqi məktəbinin "Skripka" sinfində təhsil almağa başlamışdır. 3 ildən sonra T.Quliyev adına 12 saylı musiqi məktəbində təhsilini davam etdirmişdir. Həmin müddətdən etibarən müxtəlif beynəlxalq və yerli səviyyəli müsabiqələrin laureatı olmuşdur. Belə ki, 2010-cu ilin noyabr ayında Rusiyada keçirilmiş Beynəlxalq "Gümüş kamerton" müsabiqəsinin qalibi olmuşdur. 2011-ci ilin dekabr ayında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Gənc istedadların xüsusi təqaüdə layiq görülməsi haqqında Sərəncamı ilə E.Hüseynovun adı Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na yazılmış və xüsusi aylıq təqaüdə layiq görülmüşdür.

Onun əsas məqsədi təhsilini tamamladıqdan sonra musiqi sahəsində qazandığı bilikləri Aəzrbaycanlı istedadlarla bölüşmək və ölkəmizin adını yüksəklərə qaldırmaqdır. E. Hüseynova bu fəaliyyətində uğurlar arzu edir və nailiyyətlərinin davamlı olacağına inanırıq.

## Nyukasl Universitetini birinciliklə və mükafatla bitirən tələbəmiz

B.Britaniyanın Nyukastl Universitetində "Mühasibat uçotu və maliyyə" ixtisası üzrə bakalavr təhsili almış Dövlət Proqramı təqaüdçüsü



Ceyhun Babaşov universiteti fərqlənmə ilə bitirmişdir. Eyni zamanda, C.Babaşov təhsil aldığı "Mühasibat uçotu və maliyyə" ixtisası üzrə sonuncu kurs tələbələri arasında ən yüksək akademik nəticə göstərərək universitetin Müşahidə Şurası

tərəfindən pul mükafatına layiq görülmüşdür. O, 150-dən çox tələbəni geridə qoyaraq fakültə üzrə ən yüksək nəticəni əldə etmişdir.

## Film istehsalı sahəsində təhsil alan tələbəmizin uğurları



Dövlət Proqramı çərçivəsində 2013-2016-cı illər ərzində B.Britaniyanın Aston Universitetində "Film istehsalı" ixtisası üzrə bakalavriat təhsili almış Vüqar Əfəndinin film əsərləri xarici kütləvi informasiya vasitələrində işıqlandırılır. Belə ki, o, təhsil aldığı müddətdə müxtəlif mövzuda film əsərləri hazırlamağa başlamışdır. Əsərlərinin ideyaları onun şəxsi tədqiqatlarından irəli gəlir və əsas məqsəd film sahəsində müxtəlif və maraqlı aspektləri işıqlandırmaqdır. Sonuncu kursda təhsil alarkən o, hazırladığı 10-a yaxın film əsərlərini "Vimeo" və "Youtube" kimi şəbəkələrdə paylaşırdı və filmlərin izləyici sayı 1 milyona qədər olmuşdur.

Hazırladıqları filmlər sırasında ən böyük maraq "Film Meets Art" və "The Evolution of Stop-Motion" adlı əsərlərinə olmuşdur. "Film Meets Art" və "Film Meets Art II" film əsərlərini ərsəyə gətirməsində əsas məqsəd rəsm əsərlərinin film istehsalındakı təsirini göstərməkdir.

Onun qısa film əsərləri BBC, Le Monde, Elle, Cinemania, Esquire, Entertainment Weekly kimi məşhur kütləvi informasiya vasitələrində geniş şəkildə işıqlandırılmışdır. Əsərlərinə maraq yüksək olduğundan, o, müxtəlif qəzet, jurnal və televiziya proqramlarına müsahibə vermişdir. Noyabr ayında Fransanın "Canal+" kanalında "L'Oeil de Links" verilişinə film əsəri ilə bağlı müsahibə vermişdir. Bundan başqa, oktyabr ayının sonlarında ABŞ-ın məşhur "Alamo Drafthouse" kinoteatr şəbəkəsində hər bir nümayiş olunan filmin əvvəlində V.Əfəndinin hər iki "Film Meets Art" videoları göstərilmişdir. Onu da qeyd edək ki, onun 6 film əsəri- "Her-Space", "Vugar Efendi: A Cinematic İntroduction", "İnarritu's Visual Poetry", "Nature Through Malick", "Watchmen-From Comic to Screen" və "The Evolution of Stop-Motion" Böyük Britaniya, İspaniya, Fransa, Braziliya, Meksika və ABŞ-da keçiriləcək "Feeding the Web" adlı proqram çərçivəsində "Artfutura" audiovizual sərgidə digər rəssamların əsərləri ilə yanaşı nümayiş olunacaqdır. Sevindirici haldır ki, film istehsalı sahəsində təhsil alan Dövlət Proqramı təqaüdçülərimizin uğurları ölkə xaricində geniş şəkildə işıqlandırılır.

## "Yeni Nəfəs-2" qısametrajlı ssenari müsabiqəsinin qalibi seçilmiş təqaüdçümüz

"Ssenari müəllifliyi" ixtisası üzrə Rusiyanın Sergey Qerasimov adına Ümumrusiya Dövlət Kinematoqrafçılar İnstitutunda təhsil alan Dövlət Proqramı təqaüdçümüz Orxan Səmədov Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı tərəfindən noyabr ayının 5-də keçirilmiş "Yeni Nəfəs-2" adlı qısametrajlı müsabiqədə 1-ci yerə layiq görülmüşdür.



AR Kinematoqrafçılar İttifaqı tərəfindən elan edilən müsabiqə bu sahədə gənclərin yaradıcılıq fəaliyyətini inkişaf etdirmək, gənc və istedadlı müəllifləri aşkara çıxarmaq və milli kinomuza yeni fikir gətirmək məqsədilə keçirilmişdir. Müsabiqəyə 42 müəllifin 63 ssenarisi buraxılmışdır. Ssenarilər beş nəfərlik tanınmış sənət adamlarından ibarət münsiflər heyəti tərəfindən qiymətləndirilərək O.Səmədov və həmkarı Ayşad Səfərəliyevin birgə ssenaristlik etdikləri əsərləri birinciliyə layiq görülmüş və diplomla və pul mükafatı ilə təltif olunmuşlar. Əməkdar incəsənət xadimi, kinorejissor və ssenarist Ayaz Salayev, yazıçı Natiq Rəsulzadə, xalq artisti Şəfiqə Məmmədova çıxış edərək yazılmış ssenariləri yüksək qiymətləndirmiş və yeni nəsilin Azərbaycan kinosunun gələcək inkişafından xəbər verdiyini bildirmişlər.

Eyni zamanda təqaüdçümüz O.Səmədovun yazdığı tammetrajlı "Qərib" və animasiya üçün yazılan "*Квадрат Малевича*" adlı əsəri təhsil aldığı ali təhsil müəssisəsi tərəfindən təşkil olunan beynəlxalq film festivalında qalib olmuş və diplomla təltif olunmuşdur.